**""İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC İnvestisiya Şirkəti" QSC-nin**

*( InvestAZ veb sayt üzrə)*

# İSTİFADƏÇİ RAZILAŞMASI

**Giriş.**

Aşağıda qeyd edilən və bu veb saytın bütün istifadəçiləri üçün məcburi olan şərtləri diqqətlə oxumağınız xahiş olunur. Nəzərə alın ki, bu veb saytdan istifadə edərkən Razılaşmada qeyd olunmuş şərtləri əvvəlcədən qəbul etmiş olursunuz.

Veb sayta çıxış əldə etməyə və onun vasitəsilə təklif edilən xidmətlərdən istifadəyə müəyyən şəxslər və ya müəyyən ölkələr üçün məhdudiyyətlər tətbiq edilə bilər. Şəxsə vətəndaşı olduğu ölkənin qanunları və ya başqa bir ölkənin tabe olduğu qanunları ilə, təklif edilən xidmətlərdən istifadə qadağan olunduğu təqdirdə, "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC belə şəxslərə xidmət göstərməyəcəkdir. Lakin, hüquqi və maliyyə vəziyyətlərinin Veb sayt vasitəsilə təklif edilən xidmətlərdən istifadə etməyə uyğun olub-olmadığını əvvəlcədən müəyyən etmək həmin şəxslərin öz vəzifəsidir.

Əgər şərtlərlə razı deyilsinizsə, bu halda könüllü Veb-saytı tərk edə bilərsiniz. Əks halda Veb-saytdakı ziyarətiniz və edəcəyiniz hər bir hərəkət Qaydalardakı şərtlərlə bütünlüklə razı olduğunuz anlamına gələcək.

Bu Veb-sayt, müəllif hüquqları və əmtəə nişanları ilə qorunur.

**Əsas Anlayışlar.**

- *Veb sayt* - https://www.investaz.az;
- *İstifadəçi* - Razılaşmanın şərtlərini qəbul edərək Veb saytda təklif edilən xidmətlərdən istifadə edəcək bütün şəxslər;
- *Xidmət* - Veb sayt vasitəsilə "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC tərəfindən İstifadəçiyə təklif ediləcək xidmətlər;
- *Razılaşma* - Hazırkı "İstifadəçi Razılaşması";
- *Şifrə-* İstifadəçinin Veb saytdan istifadə etmək məqsədilə özünü eyniləşdirmək üçün seçdiyi məxfi rəqəmlər və/və ya hərflər kombinasiyası;
- *Şəxsi Data* – Özündə əks etdirən fərdi məlumatlar;
- *Üçüncü tərəf-* İstifadəçidən və "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-dən başqa hər hansı tərəf.

**1. Ümumi məlumat.**

“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC əvvəlcədən xəbərdar etmədən bu Razılaşmanın mətnində və Veb saytda dəyişiklik etmək, əlavə etmək, məhdudlaşdırmaq, müvəqqəti və ya həmişəlik dayandırma kimi hərəkətlər edə bilər. Bu ümumi istifadə şərtləri, istifadəçinin aşağıda qeyd olunan hərəkətlərinə icazə verən şərtləri müəyyən edir:

*Veb sayta çıxış;*
*Təklif edilən xidmətlərdən istifadə etmək.*

**2. Xidmət haqqı və ödənişlər.**

Veb saytdan istifadə ödənişsizdir.
Telekomunikasiya şəbəkəsindən istifadə ilə əlaqədar xərclər istifadəçi tərəfindən, öz provayderinin müəyyən etdiyi qaydada ödənilir.
Telekomunikasiya xidmətini təmin edən provayderin tələb etdiyi xərcləri ödəmək İstifadəçinin öhdəliyidir.
“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC , Veb sayta çıxışı qeyri-mümkün edən telefon, informatik və ya proqram mühiti və ya internet rabitəsinin olmaması və ya uyğunsuzluğu nəticəsində yarana biləcək ziyana görə məsuliyyət daşımır.

**3. Şəxsi datalar və icazələr.**

İstifadəçi Veb saytdan istifadə etdiyi zaman “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC veb serveri avtomatik olaraq aşağıdakı təfərrüatları qeyd edir:

- IP ünvanı;
- İstifadə olunan brauzer proqramının növü;
- Veb saytın istifadə edilən bölmələri;
- Veb saytdan istifadənin tarixi və müddəti.

Buradan əldə edilən şəxsi datalar aşağıda qeyd edilən, lakin bunlarla məhdudlaşmayan məqsədlər üçün istifadə edilə bilər:

*Müqavilələrinin tənzimlənməsi üçün;*
*Bazar araşdırması və ya analitik təhlil məqsədləri üçün;*
*“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC öz proseslərini, xidmətlərini və məhsullarını yaxşılaşdırması üçün;*
*“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC tədbirləri, xidmətləri, məhsulları və yenilikləri barədə məlumat vermək üçün;*
*Fırıldaqçılıq, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması və aşkarlanması üçün;*
*Hər hansı bir qanuni öhdəliklərə (məsələn, vergi, maliyyə və inzibati öhdəliklər) riayət etmək üçün;*
*Müvafiq qanun və qaydaların İstifadəçinin açıq razılığının alınmasını tələb etmədiyi hallar istisna olmaqla, şəxsi datalar İstifadəçinin açıq razılığıyla istifadə ediləcək;*
*Şəxsi datalar yuxarıda göstərilən məqsədlərə uyğun olaraq istifadə edilməsi “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC tərəfindən təmin ediləcək.*

Xüsusi hallarda, şəxsi datalar paylaşıla bilər:

Hər hansı bir qanuni öhdəliyi yerinə yetirmək üçün, o cümlədən İstifadəçiyə təqdim edilən məhsul və ya xidmətdən şikayət edildiyi təqdirdə müvafiq nəzarətedici orqanla.

İstifadəçi, bu Veb sayt vasitəsilə toplanan datalara çıxış əldə etmək, onları dəyişdirmək və emal etmək hüququnu özündə saxlayır.
Şəxsi datalar daha uzun bir saxlama müddəti tələb olunmadıqda və ya qanunla icazə verildiyi təqdirdə müqavilə münasibətlərinin bitdiyi tarixdən 5 (il) il ərzində saxlanıla bilər.

**4. Əqli mülkiyyət və Müəllif hüquqları.**
Bütün elementləri ilə birlikdə vahid bir sistem olan bu Veb saytdaki səhifələr, datalar, görünən mətnlər, informasiyalar, dizayn, markalar və/və ya loqolar "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC məxsusdur və Onun icazəsi olmadan hər hansı bir əməliyyatla və ya hər hansı digər vasitə ilə qismən və ya tamamilə çoxaldılması, yenidən emal edilməsi qadağandır və müəllif hüquqlarının pozulmasına səbəb olur.

İstifadəçilərin aşağıdakıları vəzifələri var:
Proqramın tam və ya qismən surətini çıxarmamaq və ya çoxaltmamaq,
Proqrama və ya onun hər hansı hissəsinə dəyişiklik, modifikasiya etməmək və ya uyğunlaşdırmamaq,
Tətbiqi proqram daxilində olan və ya ona aid olan hər hansı müəllif hüququ barədə bildirişi çıxarmamaq və ya müdaxilə etməmək (bütün sahiblik hüququ "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC məxsusdur), və ya Tətbiqi proqramın əks layihələndirilməsini həyata keçirməmək.

**5. Zəmanət.**
"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC , istənilən zaman və əvvəlcədən xəbərdar etmədən bu Razılaşmanın müddəalarına əlavələr etmək, onları dəyişdirmək və ya çıxarmaq hüququ özündə saxlayır.
"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC, Veb saytda əks olunan məlumatların mütəmadi olaraq yenilənməsinə səy göstərəcək.

"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC, öz qəsdi və ya kobud səhvindən yaranan birbaşa zərərlər istisna olmaqla, Veb saytın istifadəsi nəticəsində meydana gələ biləcək birbaşa və ya dolayı zərərə görə heç bir halda məsuliyyət daşımır.

**6. Məsuliyyət.**

"İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC fors-major hallarda və ya öz nəzarət imkanlarından məhrum olduğu istisna vəziyyətlərdə İstifadəçinin şəxsi hesabına təsir edə biləcək nəticələrə görə məsuliyyət daşımır.
İstifadəçi öz hərəkət və ya hərəkətsizliyinin və bunların nəticələrinin məsuliyyətini bütövlükdə öz üzərinə götürür. "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC İstifadəçinin hərəkət və ya hərəkətsizliyindən və bunların nəticələrindən ötrü məsuliyyət daşıya bilməz.
İstifadəçi Veb saytdaki məlumat və kontentlərin yanlış və ya xətalı olmasından qaynaqlanan heç bir zərərə görə "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC məsuliyyət daşımadığını qəbul və bəyan edir.
İstifadəçi: Veb saytı istifadə edərkən, məhsul və ya xidmətdən faydalanakən, hər hansı bir əməliyyat apararkən hazırkı Razılaşmaya və qanunvericiliyə uyğun hərəkət edəcəyini, əks təqdirdə yarana biləcək birbaşa və ya dolayı hər cür zərərə görə məsuliyyət daşıdığını, belə olan

halda “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC üçün yarana biləcək hər cür zərəri dərhal kompensasiya edəcəyini qəbul və bəyan edir.
Qanunla müəyyən edilmiş həddə, “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC və onun qanuni təmsilçisi, işçiləri və agentləri heç bir halda İstifadəçinin komputerinə və ya Veb saytdan istifadəsinə edilmiş kiber hücum, müdaxilə və ya digər icazəsiz giriş nəticəsində vurulmuş istənilən ziyan, zərər, itki və ya xəsarətə görə məsuliyyət daşımayacaqdır.
İstifadəçilər qeyri-qanuni, alçaldıcı, nalayiq və ya təhdidedici məqsədlər üçün Veb saytdan istifadə edə bilməz.
Siz mövcud olduğu halda bu proqram və qurğunuz üçün hər hansı təhlükəsizlik yeniləməsi və ya proqram əlavəsinin quraşdırılmasına razılıq verirsiniz.
İstifadəçilər aşağıdakılardan irəli gələn bütün iddialar, zərərlər və xərclər üçün məsuliyyət daşıyır:
İstifadəçinin veb saytı istifadəsi;
“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC istifadəçinin təqdim etdiyi məlumatlara etibar etməsi;
və həmin istifadəçi tərəfindən bu Müqavilə, istənilən hüquqi və fiziki şəxsin əqli mülkiyyəti və ya digər hüququnun pozulması.

**7. Dəyişiklik.**

“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC bu Müqavilənin müddəalarına istənilən zaman birtərəfli qaydada dəyişiklik edə bilər.

**8. Tətbiq edilən hüquq.**

Bu Razılaşma Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təfsir edilir və Azərbaycan Respublikasının səlahiyyətli məhkəmələrinin müstəsna səlahiyyətlərinə tabedir.

9. **Əlaqə məlumatları.**

Hazırkı Razılaşmaya dair hərhansı bir sualınız yaranacığı, şərhə ehtiyacınız olacağı yaxud şikayətiniz olacağı təqdirdə, bizimlə elaqe@investaz.az email ünvanı və/və ya *1234 canlı dəstək xətti vasitəsilə əlaqə saxlaya bilərsiniz.